AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# FİZİKİ ŞƏXSLƏRİN UÇOTU

BAKI – 2026

**Fiziki şəxslər uçota alınmaq üçün ərizə ilə nə vaxt müraciət etməlidirlər?**

- Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər (fərdi sahibkarlar) - sahibkarlıq fəaliyyətinə başladığı günədək
- Ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) və ya royaltidən gəlir əldə edən fiziki şəxslər - gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq
- Azərbaycan Respublikasından kənarda gəlir əldə edən rezident fiziki şəxslər - gəlir əldə etmək hüququ yarandığı gündən gec olmayaraq
- Xüsusi notarius kimi fəaliyyət göstərən fiziki şəxslər - fəaliyyətə başladığı günədək
- Ailə kəndli təsərrüfatları - qanunvericiliklə müəyyən olunmuş qaydada uçota alındıqdan sonra bir ay müddətində
- Torpaq mülkiyyətçiləri - torpağa mülkiyyət hüququnu təsdiq edən sənədi aldıqdan sonra bir ay müddətində
- Vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər (Azərbaycan Respublikasında qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəlikləri istisna olmaqla) alıcısı Azərbaycan Respublikasında olan iş və xidmətlərin təqdim edilməsindən dövriyyəsi təqvim ili ərzində 10 000 ABŞ dollarının manat ekvivalentini keçdikdən sonra 30 gün müddətində elektron qaydada vergi uçotuna alınmalı*.

  Dövriyyəsi **10 000** ABŞ dollarının manat ekvivalentindən aşağı olan qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması **könüllü olaraq həyata keçirilir.**

---

* Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu ilə edilmiş dəyişiklik 2026-cı il avqustun 23-dən qüvvəyə minir.

**Qeyd 1:** Məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn və mühəndis xidmətlərinin elektron poçt və digər interaktiv ünsiyyət vasitələri ilə göstərilməsi, internet vasitəsilə real vaxt rejimində göstərilən tədris və təlim xidmətləri, habelə elm, təhsil, mədəniyyət, idman və əyləncə tədbirləri üçün biletlərin onlayn sifariş edilməsi xidmətləri Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinin məqsədləri üçün elektron ticarət qaydasında təqdim edilən xidmətlərə aid edilmir.

## Ərizənin təqdim edilməsi

### "Fiziki şəxsin uçotu haqqında" ərizə necə təqdim edilməlidir?

- elektron formada internet saytı vasitəsilə
- kağız daşıyıcıda müvafiq vergi orqanının əhatə dairəsində olan vergi ödəyicilərinə xidmət mərkəzləri (Bakı şəhərində və "ASAN Xidmət" mərkəzlərinin yerləşdiyi inzibati ərazi vahidlərində yerləşən xidmət mərkəzləri istisna olmaqla) və ya ərazi prinsipi nəzərə alınmadan "ASAN Xidmət" mərkəzləri vasitəsilə

### Ərizəni təqdim etmək üçün nə tələb olunur?

- Elektron formada ərizəni təqdim etmək üçün
  - İnternet Vergi İdarəsi Portalı vasitəsilə (https://new.e-taxes.gov.az) həyata keçirildikdə "Asan İmza" (Mobil İmza) (http://asanimza.az) və yaxud elektron imza (https://token.sima.az/) və ya Mobil tətbiq əsaslı SİMA
  - İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə "Asan İmza" tələb olunur.

**Kağız daşıyıcıda təqdim olunan ərizəyə**

- şəxsiyyəti təsdiq edən sənədin (Azərbaycan Respublikasının vətəndaşları üçün – şəxsiyyət vəsiqəsinin, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün – Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin, qaçqın vəsiqəsinin) surəti (şəxsiyyəti təsdiq edən sənədin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir);
- ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim edildikdə notariat qaydasında təsdiq edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədin surəti;
- "Xüsusi vergi rejiminin tətbiqi barədə məlumat" (xüsusi vergi rejimi ilə fəaliyyət göstəriləcəksə)
- torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin (aktın, şəhadətnamənin, qeydiyyat vəsiqəsinin) və "Torpaq sahəsinin planı və ölçüsü"nün surəti (torpaq mülkiyyətçilərinə münasibətdə)
- bələdiyyə orqanlarında təsərrüfatın uçota götürülməsi barədə onun başçısına və ailə üzvlərinə verilən vəsiqənin surəti (ailə kəndli təsərrüfatının başçısına münasibətdə) əlavə edilməlidir.

**Qeyd 2:** Yaşı 16-dan 18-ə qədər olan şəxslər üçün ərizə ilə müraciət edənin şəxsiyyət vəsiqəsi, valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı, belə razılıq olmadıqda isə məhkəmənin qərarı əlavə edilməlidir.

**Qeyd 3 :** Vergi Məcəlləsinə əsasən vergi ödəyicisinin uçota alındığı andan onun elektron kabineti avtomatik aktivləşdirilir və vergi orqanı tərəfindən bütün sənədlər və məktublar elektron kabinetə göndərilir. Elektron kabinetə gücləndirilmiş elektron imzadan və ya vergi orqanı tərəfindən verilən kod-paroldan (fəaliyyətini "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" əsasında həyata keçirən vergi ödəyicilərinə və mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslərə münasibətdə) istifadə etməklə daxil olmaq mümkündür.

## Fiziki şəxs uçota nə vaxt alınır?

- Elektron formada qeydiyyatdan keçdikdə uçota alınma dərhal həyata keçirilir və "Fiziki şəxsin uçotu haqqında şəhadətnamə" vergi ödəyicisinin elektron kabinetinə real vaxt rejimində göndərilir
- Ərizə kağız daşıyıcıda təqdim edildikdə, uçota alınma 1 gün ərzində həyata keçirilir və "Fiziki şəxsin uçotu haqqında şəhadətnamə" vergi ödəyicisinin elektron kabinetinə göndərilir. Ərizədə şəhadətnamənin kağız formada da verilməsi qeyd olunarsa "Fiziki şəxsin uçotu haqqında şəhadətnamə" əlavə olaraq kağız daşıyıcıda verilir.

**Qeyd 4:** Sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs sahibkarlıq fəaliyyətinə başladığı günədək, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan və ya royaltidən gəliri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir əldə edən rezident fiziki şəxslər isə gəlir əldə etmək hüququnun yarandığı gündən gec olmayaraq vergi orqanında uçota alınmaq üçün ərizə təqdim etmədikdə fiziki şəxsi vergi orqanı öz təşəbbüsü ilə vergi uçotuna alır və **5 gün** müddətində ona vergi uçotuna alınması barədə bildiriş göndərir.

**Qeyd 5:** Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (Azərbaycan Respublikasında qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəlikləri istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

## "Fiziki şəxsin uçotu haqqında ərizə"nin təqdim olunması

### Ərizəni təqdim edən fiziki şəxsin uçota alınma meyarı

Vergi orqanında hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət göstərmək qərarına gəlmisinizsə, aşağıdakı meyarlardan birini seçməlisiniz.

- Vergi Məcəlləsinin 33.4-cü maddəsində (sahibkarlıq və qeyri-sahibkarlıqla məşğul olan fiziki şəxslər) nəzərdə tutulan qaydada,
- Ailə kəndli təsərrüfatının* başçısı kimi və ya
- Torpaq mülkiyyətçisi kimi (sahibliyində pay torpağı olan şəxslər)

**Qeyd:** "Fiziki şəxsin uçotu haqqında ərizə"nin doldurulma qaydaları ilə https://www.taxes.gov.az/az/page/erize-ve-arayis-formalari elektron ünvanından ətraflı tanış ola bilərsiniz.

* **Ailə kəndli təsərrüfatı** - ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalı, emalı, saxlanması, daşınması və satılması) birgə həyata keçirilməsidir. Ailə kəndli təsərrüfatı onun üzvlərinin seçdiyi təsərrüfat başçısı tərəfindən idarə edilir.

# Fiziki şəxs kimi vergi orqanında uçota alındıqdan sonra nə etməlisiniz?

**Qanunla müəyyən edilmiş vergiləri, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta (muzdlu işçiləri cəlb etməklə fəaliyyət göstərəcəyiniz halda) və icbari tibbi sığorta haqlarını düzgün hesablamalı, tam və vaxtında ödəməlisiniz.**

- vergilərin və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi barədə daha geniş məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.

**Lisenziya tələb edən fəaliyyət növü ilə məşğul olduqda müvafiq qurumlardan lisenziya almalısınız.**

- Lisenziya tələb olunan fəaliyyət növləri və müraciət etmə qaydası ilə www.lisenziya.gov.az internet saytı və "İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsilə tanış ola bilərsiniz.
- Lisenziya olmadan lisenziya tələb edilən fəaliyyət növü ilə məşğul olan vergi ödəyicisi inzibati və (və ya) cinayət məsuliyyətinə cəlb oluna bilər.

**Mühasibat uçotunu düzgün aparmalısınız, yəni qanunvericilikdə nəzərdə tutulmuş qaydada gəlirlərin (xərclərin), o cümlədən vergidən azad edilən gəlirlərin (xərclərin) və vergitutma obyektlərinin uçotunu aparmalısınız.**

- Mühasibat uçotu ilə bağlı ətraflı məlumatı Azərbaycan Respublikası Maliyyə Nazirliyinin internet saytından (http://www.maliyye.gov.az/static/13/muhasibat-ucotu) əldə edə bilərsiniz.
- Mühasibat uçotu düzgün aparılmadığı halda vergi ödəyicisi maliyyə sanksiyalarına və əlavə vergi hesablamalarına məruz qala bilər.

**Təsərrüfat subyekt(lər)iniz (obyekt(lər)iniz) olduqda uçota alınmalıdır.**

- Uçota alınma qaydası ilə "Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vergi-odeyicilerine-gosterilen-xidmetlerin-vahid-standartlari) vasitəsi ilə tanış ola bilərsiniz.
- Təsərrüfat subyekti (obyekti) tələb olunan fəaliyyət növləri ilə "İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsilə tanış ola bilərsiniz.
- Vergi ödəyicisinin iki və ya daha çox təsərrüfat subyekti (obyekti) olduqda həmin vergi ödəyicisi iqtisadi maraqlar mərkəzinin yerləşdiyi ünvan üzrə yenidən uçota alınır.
- Təsərrüfat subyektiniz (obyektiniz) fiziki şəxsdən icarəyə götürüləcəyi halda, Vergi Məcəlləsinə uyğun olaraq, icarə haqqından ödəmə mənbəyində vergini tutmalı, bəyan etməli və dövlət büdcəsinə ödəməli olacaqsınız.
- Təsərrüfat subyektinin (obyektinin) vergi orqanlarında uçota alınmamasına və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsinə görə vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

**Əhali ilə pul hesablaşmalarını nəzarət-kassa aparatları (bundan sonra NKA-lar) və POS-terminallar vasitəsilə həyata keçirməli olduğunuz halda, həmin avadanlıqlar uçota alınmalıdır.**

- Uçota alınma qaydası ilə "Vergi ödəyicilərinə göstərilən xidmətlərin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vergi-odeyicilerine-gosterilen-xidmetlerin-vahid-standartlari) vasitəsilə tanış ola bilərsiniz.
- NKA və (və ya) POS-terminal tələb olunan fəaliyyət növləri ilə "İqtisadi fəaliyyət növləri üzrə vergi münasibətlərinin vahid standartları" (https://www.taxes.gov.az/az/page/vahid-standartlar) vasitəsilə tanış ola bilərsiniz.

- NKA-nı tətbiq etməli olan, lakin etməyən və ya qanunvericiliyə uyğun olmayan qaydada tətbiq edən, həmçinin POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminallar quraşdırmayan və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

**Muzdlu işçiləri cəlb etməklə fəaliyyət göstərəcəyiniz halda, əmək müqavilələrini https://www.e-gov.az/ portalı vasitəsilə qeydiyyata almalısınız.**

- Müvafiq qaydada əmək müqavilələri hüquqi qüvvəyə minmədən işçiləri işlərin görülməsinə (xidmətlərin göstərilməsinə) cəlb edən vergi ödəyiciləri məsuliyyətə cəlb olunurlar.

**Qeyd:** Vergi ödəyicisinin olduğu və ya yaşadığı yer, habelə vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan digər məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, dəyişiklik baş verən gündən 15 gün müddətində vergi orqanına məlumat verilməlidir. Uçot məlumatlarını vaxtında dəyişdirməyən vergi ödəyicilərinə maliyyə sanksiyaları tətbiq edilir.

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**